*“Metafizika” Journal*
***Vol 7, issue 2, serial 26, 2024. pp.132-142***

***AcademyGate Publishing***
***p-ISSN 2616-6879; e-ISSN 2617-751X***

**UOT:** 297; 23/28
**KBT:** 36.37; 86.38
**DOI:** 10.33864/2617-751X.2024.v7.i2.132-142
**MJ №** 215

# Xristianlıq və İslamda Dəccal inancının oxşar və fərqli cəhətləri

**Leylaxanım Məlikova***
**Ələddin Məlikov****

**Abstrakt.** Xrsitianlıq və İslam dinində dünyanın sonu barədə bir çox məlumatlar mövcuddur. Dünyanın sonun nə vaxt olacağı bilinməsədə, onun yaxınladşığı zamanda baş verəcəklər barədə dini ədəbiyyatda bəzi əlamətlər mövcuddur. Bu əlamətlərdən biri də Dəccalın gəlişidir. Dəccalın gəlişi Xristianlıq və İslam düşüncəsində həm də xilaskarın gələcəyi vaxtın yaxın olduğunun xəbərçisidir. Hər iki dinə görə Dəccal gözlənilən xilaskardan əvvəl gələcək, insanları aldadadıb yalanlarına inandıracaq və ona aldananlar onun ardından gedəcəklər. Xilaskar gəldikdən sonra Dəcalla döyüşəcək və onu məğlub edəcəkdir. Xristian inancında Dəccal “Anti-christ” termini ilə ifadə olunur. Dəcalla bağlı xəbərlər Əhdi-Cədid dörd kitabı Yəhyanın ilk iki məktubu, Vəhy kitabı və Pavelin Saloniklilərə İkinci Məktubunda verilib. Bəzi hissələrdə açıq bir ifadə ilə, bəzi hissələrdə isə simvolik olaraq Dəccaldan bəhs olunur. İslam inancında Dəccalla bağlı məlumatlar Qurani-Kərimdə açıq bir ifadə ilə bildirilməyib, onunla bağlı məlumatlar hədis mənbələrindədir. Qiyamət günü bilinmədiyi kimi Dəccalın gələcəyi gün də bilinmir. Sadəcə onun gələcəyi vaxt fəlakətlərin, xaosun artdığı bir zaman dilimi olacağı bilinir. Dəccalın gəlişi İslamda on böyük qiyamət əlamətindən biri hesab olunur.

**Açar sözlər:** Dəccal, Məsih, Anti-christ, İslam, Xristianlıq, axır zaman, qiyamət

---

* Azərbycan İlahiyyat İnstitutunun “Dinlər tarixi” itisası üzrə magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: leyla.xanim.2020@gmail.com
https://orcid.org/0009-0009-4649-7108
** Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
“AcademyGate Publishing”-in elmi tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
ISNI: 0000000514199177
**Məqaləyə istinad:** Məlikova, L., & Məlikov, Ə. [2024] Xristianlıq və İslamda Dəccal inancının oxşar və fərqli cəhətləri. *“Metafizika” jurnalı, 7*(2), səh.132-142.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.132-142

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 19.03.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 22.04.2024*
*Çapa qəbul edilmişdir: 06.05.2024*

## 1.Giriş

İnsanlıq tarixinə nəzər saldıqda görürük ki, yaxşı və pis arasında olan mübarizə hər zaman mövcud olub. Xeyir və şərin mübarizəsi insanların dini inancında da özünü göstərib. İlahi dinlərdə olan Xristianlıq və İslamda olan xeyir və şər mübarizəsi nəzər saldıqda bir nümunədə, hər iki dində qiyamət gününün yaxınlaşdığı bir dövrdə bir xilaskarın gələcəyi və onun şər qüvvə ilə mübarizə aparıb insanları xilas edəcəyi inancıdır.

Xristianlıq və İslamda qiyamət gününün nə zaman olacağı bilinməsədə, onun yaxınlaşdığı zaman ərzində baş verəcək bəzi hadisələr barədə məlumatlar mövcuddur. Qiyamətin yaxın olduğu həmin zaman dilimi axır zaman və ya son zaman olaraq bilinir. Xristianlıq və İslam mənbələrində axır zamanla bağlı müxtəlif əlamətlər mövcuddur. Bunlardan bəziləri dinlərin öz müqəddəs kitablarında, bəziləri isə rəvayətlərdə özünü göstərir. Bu inanclardan ən önəmlisi axır zamanda yer üzərində fitnə yaratmaq məqsədilə ortaya çıxacaq olan, insanları yalanlarına inandıran, möcüzələr göstərən Dəccal adlı varlığa inamdır. Bu məqalədə Dəccalın Xristianlıq və İslam inancında olan yerinə, xüsusiyyətlərinə, gələcəyi zamanda nələr edəcəyinə, hər iki dində olan Dəccal fiqurunun oxşar və fərqli yönlərinə baxılacaqdır.

## 2.Xristianlıqda dəccal (Anti-christ) inancı

Məsih mərkəzli bir din olan Xristianlıqda esxatoloji fiqurlardan biri də Dəccaldır. Dəccal Xristian teologiyasında "Anti-christ" termini ilə ifadə olunur. Antixrist Məsihin ziddi və düşməni olaraq bilinir. Onun haqqında müqəddəs yazılarda birbaşa istinadlar azlıq təşkil edir. Müqəddəs kitabda "Dəccal" sözü "yalançı məsihlər, yalançı peyğəmbərlər", "məhv oğlu, fəsad adamı" kimi ifadə olunub. Müqəddəs kitaba görə Dəccalın gəlişi Məsihin ikinci gəlişindən əvvəl olacaq və İsa Məsihin əli ilə məhv ediləcəkdir.

> "*Qoy heç kəs sizi aldatmasın, çünki o gün gəlməzdən əvvəl dönüklük baş qaldırmalı, qanunsuzluq adamı, yəni həlaka məhkum edilmiş şəxs zühur etməlidir. Bu düşmən özünü allah deyilən hər kəsdən və pərəstiş edilən hər bir şeydən üstün tutacaq, Allahın məbədində oturub özünü allah kimi qələmə verəcək". [II Saloniklər 2: 3-5]*

Xristianlıqda Dəccalın gələcəyinə dair xəbərlər Əhdi-Cədidin dörd kitabı Yəhyanın ilk iki məktubu, Vəhy kitabı və Pavelin Saloniklilərə İkinci Məktubunda verilib. Saloniklərin ikinci məktubu və Vəhy kitabına nəzər saldıqda Dəccal termini ilə qarşılaşmırıq, lakin hər iki kitabda ona işarə edən əlamətlər mövcuddur [Lerner, 2023].

Yəhya məktublarında Dəccal və Dəccalar sözlərindən istifadə edir, lakin onlar bir güclü pis liderə deyil, İsa Məsihin təcəssümünü [1 Yəhya 4:3] və onun ilahi təbiətini inkar edən, beləliklə ata və oğulun əsl mahiyyətini inkar edən yalançı müəllimlərə aid edilir. [1 Yəhya 2:18, 22]. Bununla yanaşı

Yəhyanın ikinci məktubunda dəccallar İsa Məsihin cismani olaraq gəldiyini inkar edənlərdir [Jamberk, 2015, s.224]. İsa Məsih özünün ən böyük esxatoloji mesajında dünyada geniş yayılmış ədalətsizliyin və Kilsədə dönüklüyün gələcəyi dövrü əvvəlcədən söyləmişdir [Matta 24:10-14]. Pavelin Saloniklilərə İkinci Məktubunda [2:3,4,8] bu dönüklüyün nəticəsi olaraq "Günah adamının" gəlişi vurğulanıb [Rose, 2013, s.244].

Müqəddəs kitabın Vəhy kitabında Dəccalın iki canavar şəklində simvolik təsvirləri verilmişdir. Onlardan biri dənizdən çıxan on buynuzlu yeddi başlı heyvandır. Başlarına küfr adları yazılmışdır. Bu canavar Danile kitabından dörd canavarın birləşmiş formasıdır. Dəccal Şeytandan hakimiyyət və güc almışdır [Demirci, 2019, s.67]. Məsih səmavi orduları ilə yerə qayıtdıqda, onları atəş gölünə atır və davamçılarını ağzından çıxan qılıncla öldürür [Vəhy, 11:7, 13:1-10, 17:3-18, 19:19-21; Daniel, 7:1-9, 15-27]. Vəhy kitabında Dəccal və yalançı Məsihin bu təsviri məcazi, gizli mənalarına malikdir.

Xristian inancına görə Dəccalın hökmranlığı üç il yarım davam edəcək. Məsih kimi, Dəccal da Yerusəlimə gələcək, lakin Məsihin əksinə olaraq, yəhudilər tərəfindən coşğu və hörmətlə qarşılanacaq. O hiylə və yalanları ilə insanları özünə inandırmağı bacaracaq və insanlar onun arxasınca gedəcək. Onun hakimiyyəti dövründə , məbədi yenidən tikəcək və Süleymanın taxtında oturacaq. Dəccal Məsih kimi möcüzələr göstərəcək və ona ibadət edilsin deyə heykəllərini qoyduracaq. O, yer üzünün hökmdarlarını özünə çevirəcək və xristianları təqib edəcək. Onun hiylələrinə müqavimət göstərənlərin hamısı işgəncəyə məruz qalacaq [Lerner, 2023]. Allahın həqiqi Məsihindən dönən bəşəriyyət Dəccalı "dünyanın Məsihi, onun mədəni xilaskarı" kimi görəcək. Onun hakimiyyəti altında insan birliyi Allaha və Onun Məsihinə qarşı "insan üsyanının zirvəsi" olacaq [Rose, 2013, s.244]. Ayrılmış üç il yarımın sonunda isə Dəccal Məsihin gücü ilə məhv ediləcək, bunun ardınca çox qısa bir fasilədən sonra Son Qiyamət və dünyanın sonu gələcək [Lerner, 2023].

Xristian inancında Dəccal anlayışında bəzi ümumi xüsusiyyətlər var. Bunlar:

1. Məsih gəlməmişdən əvvəl anidəm gələcək və siyasi hakimiyyəti ələ keçirəcəkdir.
2. Dəccal və ya onun əsas köməkçisi yəhudidir.
3. Gəldikdən sonra özünü yəhudiliərin "Məsih"i olaraq elan edəcək.
4. Məsih kimi möcüzələr göstərəcəkdir.
5. Onun yaşıdığı bölgə Qüds olacaq
6. Yəhudi ibadətində iştirak edəcəyi yəhudilər üçün Qüds "məbədi" tikəcəkdir [Gençtürk, 2014, s.25].

Tarix boyu bu kimi xüsusiyyətləri daşıyanlar insanlar tərəfindən Dəccal olaraq adlandırılıb. Katolik kilsəsi tərəfindən zülm görən və təqib edilən bəzi orta dövr ilahiyyatçıları və islahatçıları, Dəccalı papalarla və ya ümumilikdə papalıq anlayışı ilə eyniləşdiriblər. Wayne Grudem bütün bu düşüncələrin yanlış olduğunu vurğulayır. Onun fikrinə görə xristianlıqda hələ görülməmiş zülm özünü göstərəcək və əsl Dəccal ortaya çıxacaq. Bu şəxs İsa Məsihin ikinci gəlişindən sona məhv ediləcək və insanlar onun zülmündən xilas olacaq. Grudenə görə, tarix boyunca Xristianlara zülm edən hər kəsi Dəccal olaraq görməsək də, bir çoxunu həqiqətdə hələ gəlməmiş olan dəccalın öncülləri adlandırmaq yalnış olmaz [Jamberk, 2015, s.224].

Sonda deyə bilərik ki, Xristianlıqda Dəccalın gəlişi ilə üç əsas görüş mövcuddur. **Birinci görüşə görə** Dəccal gəlmişdir və artıq həyatda deyil. Bu görüşü müdafiə edənlərə Dəccalın kim olduğuna dair bir çox nümunələr göstərirlər. Dəccal olduğu iddia edolən ilk personajlardan biri Antioxus Epiphanusdur. Onu Yehovaya ibadətə qarşı çıxmasına, məbədi murdarlamasına, yəhudililərə qarşı amansız rəftarına və s. əlamətlərinə görə Dəccal adlandırırdılar. Dəccal olduğu iddia olunan digər presonaaj isə Nerondur. Onu Roma imperatoru olarkən dinsizliyinə, tükənməz eqoizminə və amansız rəftarına görə Dəccala bənzədirdilər. Lakin onun Dəccal fiquruna uyğun olmadığı sübut edilmişdir, çünki Yəhyanın Vəhy kitabının on üçüncü fəsini yazdığı vaxtda Neronun artıq həyatda deyildi. **İkinci görüşün tərəfdarları** Dəccalı Papalıq sistemi ilə eyniləşdirirlər. Onlara görə papanın təkəbbürü, məsumluq iddiası, verdiyi vədlərə əməl etməməsi “Günah oğlunun” xüsusiyyətləri ilə eynidir. **Üçüncü görüşə görə** Dəccal hələ yer üzünə gəlməyib və gələvəyi vaxt bizə məlum deyil [Pink, 2013, s.4-5]. Bu görüşlər arasında ən geniş yayılmışı üçüncüsüdür.

**3.İslamda Dəccal inancı**

Lüğəvi mənası “bir şeyi örtmək, bəzək vurmaq, yaxud boyamaq” [Camalov, Əzizova və b, 2020, s.66] mənasında olan Dəccal İslam dinində qiyamət əlamətlərindən biridir. Terminoloji məna olaraq Dəccal “Axır zamanda ortaya çıxacaq, göstərdiyi qeyri-adi hadisələrlə bəzi insanları doğru yoldan döndərəcək bir şəxs” olaraq qəbul edilir [Deliser, 2018, s.312]. Qurani- Kərimdə qiyamət əlaməti olaraq Dəccalın gələcəyinə dair açıq ifadəylə qarşılaşılmır. Qurani-Kərimdə açıq bir ifadəylə yer almayan dəccal məsələsi hədis kitablarının Fitən və Məlahimə bölmələrində və qiyamət əlamətlərindən bəhs edən əsərlərin müvafiq hissələrində yer alır. Bunarla yanaşı hər dövrdə aktual olan tədqiqat mövzularından biridir.

Dəccal Həz. Nuhun dövründən bütün peyğəmbərlər ümmətlərini onun fitnə-fəsadından çəkindinmək üçün onları xəbərdar ediblər, bununla yanaşı Həz. Məhəmməd (s.a.s)-in də onun şəridən Allaha sığındığı bir varlıq kimi

bilinir. Bəzi mənbələrdə xəstə olan bir varlıq kimi, bəzilərində isə konkret bir şəxs kimi təsvir edilir. Dəccalın sayı barədə də müxtəlif rəvayətlər mövcuddur. Ümumiyyətlə, otuzdan çox dəccalın olduğu rəvayət olunur. Rəvayətlərin böyük əksəriyyətinə görə Dəccal və Dəccalların sayı göstərilmir [Apak, 2022, s.13].

Mövzu ilə bağlı bəzi rəvayətlərdə dəccalı Hz. Peyğəmbərin dövründə Mədinədə yaşamış İbn Səyyad olduğu qeyd olunur. Yəhudi əsilli olduğu, falla məşğul olan, qəribə davranışları olan və peyğəmbər olduğunu iddia edən İbn Səyyadın dəccaliyyətə aid bəzi xüsusiyyət və keyfiyyətlət malik olduğu üçün dəccal olduğu qiymətləndirilmişdir. Lakin rəvayətdə bəhs edilən dəccalın xüsusiyyətlərini daşıyan şəxslə qiyamət yaxınlaşdığı dövrdə gələcək Dəccal eyni şəxs deyil.

Rəvayətlərdə Dəccalın görnüşü və mənəvi xüsusiyyətlərilə bağlı müxtəlif məlumatlar mövcuddur. Dəccalın əsas xüsusiyyətlərindən biri bir gözünün qüsrlu olmasıdır. Həz. Məhəmməd (s.a.s.) bu xəbəri verdikdə, digər peyğəmbərlərin bu xüsusiyyəti bildirmədiklərini vurğulayıb. Bu məsələ ilə bağlı rəvayətlərə baxdıqda, bu qüsurun sağ gözdə olduğunu deyən rəvayətlər də mövcuddur, sol gözdə olduğunu deyənlərdə. Bəzi görüşlərə görə, bir gözünün kor olması xüsusiyyəti “din dilinin” ifadə formasıdır. Biliyin mənbəyi olaraq beş duyğu orqanı və ağıl əsas götürülür. Bunlar İslamın mahiyyətini anlayan iki göz kimidir. Qurani Kərimdə “Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər (qəlb gözü) kor olar.” ayəsi bu həqiqəti dilə gətirir. Yəni Dəccalın ilahi həqiqətə çata biləcək, İslamın mahiyyətini görəcək gözü kordur [Veli, 2003, s.186]. İlahlıq iddiası edəcək Dəccalı zahiri görünüş baxımından xoş olmayan görkəmə sahib olacaqdır. İnsanlar onun bu görkəmindən heyrətlənəcək və niyyətindən xəbərdar olacaqlar [Bodor, 2017, s.97]. Onun görkəmi ilə bağlı mənbələrdə bəzi zidd görüşlər mövcuddur. O, qısa boylu və ya cüssəli, əsmər və ya ağ dərili və buruq saçlı olacaqdır. Onun alında yalnız onun əməlindən narahat olanların və möminlərin görə biləcəyi “كافر” "kafir” sözü yazılacaqdır [Apak, 2022, s.13]. Dəccalın bərabərində cənnət və cəhənnəm mövcuddur. Lakin onun cənnəti cəhənnəm, cəhənnəmi cənnətdir. Buna bənzər olaraq onun yanında alov və sudan ibarət iki çay var. Lakin alov olan həqiqətdə su, su olan isə alovdur. Dəccalın xüsusiyyətlərinə nəzər saldıqda əsasən ziddiyyətlərlə qarşılaşıldığı görünür. Onun ətrafında yaxşı olaraq görünənlər pis, pis olaraq görünənlər isə yaxşıdır. Onun aldadıcı xüsusiyyəti burada açıq şəkildə görünür. Əslində həqiqətə qarşı “kor” olanlar onun yalanlarını doğru olaraq görüb arxasınca gedəcəkdir.

İstər hədislərdə, istərsə də İslam qaynaqlarında Dəccala fövqəlbəşəri xüsusiyyətlər aid edilir, Həz. İsanın möcüzələri ilə oxşarlıq təşkil edən bu xüsusiyyətlər arasında külək kimi sürətli hərəkət etmə, yağış yağdırma,

qurumuş bitkiləri canlandırma, bolluq və qıtlıq yaratma, öldürüb diriltmə, xəstələri sağaltma, dağları yerindən oynatma, günəşi saxlama kimi xüsusiyyətlər mövcuddur. Dəccalın ortaya çıxacağı zaman və məkanla bağlı müxtəlif görüşlər mövcuddur. Onun “bir yüz ilin başında”, İstanbul fəth olunduqdan sonra, insanlar iman və nifaq şəklində iki hissəyə bölündüyü bir vaxtda, Xorasanda, İsfəhanda, Şamla İraq arasında olan bir yerdə və ya Şamdan çıxacağı, külək kimi sürətli hərəkət edəcəyi, buna baxmayaraq Məkkə, Mədinə və Qüdsə daxil olmayacağı bildirilib [Çelebi, 2019, s.70].

Rəvayətlərə görə, Dəccalın gəldiyi ilk günü insana bir il kimi, ikinci gün bir ay kimi, üçüncü gün bir həftə kimi, digər günlər isə normal günlər kimi gələcək. Gəldiyi ilk vaxtlarda müsibətlərin çoxluğundan insana bir gün bir il kimi gələcək, ikinci dövrdə bu biraz yüngülləşəcək, üçüncü və dördüncü dövrlərdə isə insanlar cəhalətə, qəflətə öyrəşdikləri üçün cahil şəkildə yaşayanlara keçən günlər normal günlər kimi gələcək [Veli, 2003, s.188]. Dəccalın yer üzündə qaldığı müddətlə bağlı rəvayətlərə baxdıqda ortaq fikir qırx rəqəmidir. Məsələn, Rəsulullahdan (s.a.s.) nəql olunan bir rəvayətdə: *“Dəccal qırx gün yer üzündə dolaşacaq. Məkkə və Mədinədən başqa hər yerə daxil olacaq. Onun bir günü il, bir günü ay, bir günü həftə, digər günləri sizin günləriniz kimidir”.* Bəzi rəvayətlərdə qırx gün yox, qırx səhər, qırx gecə, qırx il ifadələrinə yer verilib [Bodor, 2017, s.95].

Dəccalın ölümünə gəldikdə isə bu mövzu ilə bağlı müxtəlif fikirlər mövcuddur. İslam məzhəblərində olan müxtəlif fikirlərə görə Dəccal Həz. İsa və ya Həz. Mehdi tərəfindən məhv ediləcəkdir. Bir rəvayətə görə Həz. İsa iki mələklə birlikdə Şamın şərqindəki minarəyə enəcək, dəccalı axtaracaq və Lud qapısında onu öldürəcəkdir [Bodor, 2017, s.99].

Dəccalla bağlı rəvayətləri şərh edən bəzi İslam alimlərinin ortaq görüşünə görə, Dəcala bağlı xəbərlər insanları fitnə-fəsad törədənlərə qarşı xəbərdar etməkdir. Yəni Dəccalı xüsusi bir şəxs olaraq qəbul etməkdənsə, küfrü yayan, insanları doğru yoldan döndərən, fitnə-fəsad törədən hər cür insan və zehniyyəti dəccal olaraq qəbul etməyi daha məqbul hesab etmək olar. Dəccal inancını bu şəkildə qəbul etmək insanın imanına zərər verməz, çünki Dəccal inancı dinin zərurətlərindən hesab olunmur. Bu anlayışı bu şəkildə qəbul etmən ən yaxşı halda bidət və xəta olar [Çelebi, 2019, s.71]. Bu görüşlə yanaşı İslam dünyasında Dəccal inancını ümumiyyətlə rədd edən görüşə mənsub şəxlər də mövcud olub. Bu şəxslərdən biri Mahmud Əbu Rəyyədir. O, Dəccal inancını bütövlüklə rədd etmişdir.

Beləliklə, İslam inancında Dəcalla bağlı əsas üç yanaşmanın mövcud olduğunu deyə bilərik. Bunlardan birincisi Dəccalın konkret bir şəxslə eyniləşdirilməsi görüşüdür. İkinci görüş Dəccalın hər hansısa bir şəxs yox, şərri təsvir edən simvoldur. Bu əsasən modern dövrdə ortaya çıxan görüşdür.

Üçüncü görüş isə Dəccalı ümumiyyətlə rədd edən görüşdür [Akman, 2021, s. 197].

**4.Nəticə**

Sonda deyə bilərik ki, hər iki dində də Dəccal inancı gözləniən xilaskarın gəlişi ilə əlaqələndirilir. Dəccal gözlənən xilaskarın ziddi xüsusiyyətlərə malik olan bir varlıqdır. İslam və Xristianlıqda olan Dəccal obrazına nəzər saldıqda fərqliliklərdən daha çox oxşarlıqların mövcud olduğu görünür.

Dəccallın görünüşü, kim olduğu, xüsusiyyətləri ilə bağlı məlumatlara hər iki dində də mövcuddur. Lakin İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimdə açıq bir ifadə ilə Dəccalın gələcəyi xəbəri verilmir. Onunla bağlı məlumatlar əsasən hədis mənbələrində yer alır. Xristianlıqda isə Dəccalla bağlı məlumatlar Kitabi müqəddəsdə mövcuddur.

Hər iki dinə görə Dəccal, yer üzərində fitnə yaradan, insanları yolundan azdıran bir varlıqdır. Onun gələcəyi vaxt dünyada fəlakətlərin, ədalətsizliyin çox olduğu zaman olacaqdır. Onun fövqəlbəşəri xüsusiyyətləri mövcuddur. İnsanlar onun bu xüsusiyyətlərinə inanacaq və Dəccal insanların üzərində bir müddət hakimiyyətə sahib olacaq. Dəccala aldanan insanlar bir növ həqiqətə qarşı kor olan, mənəvi cəhətdən zəif olan insanlar olacaqdır. Lakin Dəccal hakimiyyəti ələ keçirdikədən sonra insanlara zülm edəcək, verdiyi vədlərə xilaf çıxacaq. Onun zülmü gözlənən xilaskarın, yəni Xristianlığa görə Məsihin, İslama görə isə Məsih\Mehdinin gəlişi ilə sona çatacaq. Bundan sonra yer üzərində təkcə xeyir hakim olacaq. Bunlarla yanaşı Dəccalın ölümü qiyamət gününün və dünyanın sonunu yaxınlaşması anlamına gəlir.

Dəccalla bağlı diqqət çəkən məqamlardan biri də, İslam və Xristian dünyasında onu bir şəxslə eyniləşdirməyən alimlərin görüşüdür. Dəccal həmdə bir növ insanları fitnə-fəsada qarşı ayıq tutmaq məqsədini daşıyır, yəni insanlar Dəccal xüsusiyyəti daşıyan hər cür insan, düşüncə və rejimdən uzaq qalmağı bacarmalı, onlara aldanmamalıdır.

**ƏDƏBİYYAT**


1. Akman, M. (2021). Kelâm Perspektifinden Kıyâmet Alâmetlerinin Mahiyeti. *Journal of Islamic Research, 32* (1), s. 190-214.
2. Apak, M. (2022). *Modern İslâmî Literatürde Deccâl*. Bursa: T.C. Bursa Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü, 116 s.
3. Bıyık, M. (2007). Hıristiyan Teolojisinde Deccal Ve Yecüc - Mecüc Kavramları Üzerine Bir Değerlendirme. *Hitit Üniversitesi İlahiyat Fakültesi Dergis, 6* (11), s. 53-79.
4. Bodor, O. (2017). Hadislere Göre Deccâlin Özellikleri. Kırgızıstan: *Akademik Bakış Dergisi*, s. 90-102.
5. Camalov, M., Əzizova, E. və b. (2020). *İzahli Dini Terminlər Lüğəti*. Bakı: AİI, 320 s.

**6.** Çelebi, I. (2019). *Deccal*. Ankara: Dia, cild: IX, s. 69-72.
**7.** Deliser, B. *Hak Dini Kur’an Dili’nde İsa – Mesih Ve Mehdilikle İlgili Görüşler*. Sivas: Cumhuriyet Üniversitesi İlahiyat Fakültesi, s. 304-334.
**8.** Demirci, K. (2019). *Deccal*. Ankara: Dia, s.67-69.
**9.** Lerner, R. E. (2024). *Antichrist.* Encyclopedia Britannica. https://www.britannica.com/topic/Antichrist (Müraciət Vaxti: 22.03.2024)
**10.** Gençtürk, S. (2014). *İlahi Dinlerde Ahir Zaman Ve Kıyamet*. Isparta: T.C. Süleyman Demirel Üniversitesi, 95 s.
**11.** Jambrek, S. (2015). The Teaching Of Christ And The Antichrist In The Thought Of Matthias Flacius Illyricus. Kaıros: *Evangelical Journal of Theology*, 9(2), s. 221-240.
**12.** *Müqəddəs Kitab (Tövrat, Zəbur, İncil),* https://www.jw.org/az/kitabxana/m%C3%BCq%C9%99dd%C9%99s-kitab/nwt/m%C3%BCnd%C9%99ricat/
**13.** Pink, A W. (2013). *The Antichrist*. Christian Classics Ethereal Library, 148 p.
**14.** Rose, D. R. (2013). *Eschatology*. Asbury Theological Seminary 90th Anniversary Publications, pp. 233-259.
**15.** Veli, H. (2003). Kıyamet alametleri. *Din Araştırmaları, 6(16),* s. 183-198.

## Сходства и различия веры в Даджжаля в христианстве и исламе

**Лейлаханум Маликова***
**Аладдин Маликов****

**Абстракт.** В христианстве и Исламе существует много информации о конце света. Хотя неизвестно, когда произойдет данное событие, в религиозной литературе повествуется о некоторых признаках указывающих о

* Магистрант по специальности “История религий” Азербайджанского Института Теологии; Баку, Азербайджан (ответственный автор)
E-mail: leyla.xanim.2020@gmail.com
https://orcid.org/0009-0009-4649-7108
** Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
ISNI: 0000000514199177
**Цитировать статью:** Маликова, Л., & Маликов, А. [2024]. Сходства и различия веры в Даджжаля в христианстве и исламе. *Журнал «Metafizika», 7(2),* с.132-142.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.132-142

**История статьи:**
*Статья поступила в редакцию: 19.03.2024*
*Отправлена на доработку: 22.04.2024*
*Принята для печати: 06.05.2024*

его приближении. Одним из таких признаков является приход Даджжаля. В христианстве и исламском мышлении приход антихриста также является предвестником приближения времени прихода спасителя. Согласно обеим религиям, Даджжал опередит ожидаемого спасителя и своей ложью обманет и убедит людей. В итоге уверовавшие в него последуют за ним. Сражение Спасителя и Даджжала завершится победой первого. В христианской вере Даджжал указывается термином «Антихрист». В первых четырех книгах Нового Завета, во втором послании Иоанна, книге Откровений и во Втором послании Павла к фессалоникийцам отражены предсказания о Даджжале. В некоторых главах данная тема предоставлена ясно, а в некоторых – символически.

Хотя в основной книге ислама - священном Коране сведения о Даджжале не указаны в раскрытой форме, в хадисных источниках имеются определенные упоминания.

Согласно этим сведениям, день прибытия Даджжала неизвестен, как и Судный день. Подчеркивается, что его прибытие совпадает со временем катастрофы, хаоса и является одним из десяти великих признаков судного дня в исламе.

**Ключевые слова**: Даджжал, Христос, Антихрист, Ислам, Христианство, конец света, судный день

## Similarities and Differences between Christianity's and Islam's Belief in Al-Dajjal (The Deceiver)

**Leylakhanim Malikova***
**Aladdin Malikov****

**Abstract.** Both in Christianity and Islam, there are various stories regarding the end of the world. Although no exact information is given about when it will happen, there are some events in the religious literature that are described as the signs of the approaching of the end of the world. One of these signs is the arrival of AL-Dajjal.

* Master's student in the specialty "History of Religions" at the Theology Institute of Azerbaijan; Baku, Azerbaijan (corresponding author)
E-mail: leyla.xanim.2020@gmail.com
https://orcid.org/0009-0009-4649-7108
** Doctor of Philosophy in Philosophy, Associate Professor,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
ISNI: 0000000514199177
**To cite this article:** Malikova, L., & Malikov, A. [2024]. Similarities and Differences between Christianity's and Islam's belief in Al-Dajjal (The Deceiver). *"Metafizika" journal, 7(2),* pp.132-142.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.132-142

**Article history:**
*Received: 19.03.2024*
*Accepted: 06.05.2024*

Both in Christianity and Islam, the arrival of AL-Dajjal signifies the coming of the messiah (Christ or Mahdi) as well. To both religions, AL-Dajjal will come before the expected messiah, deceive people into believing his lies, and those who are deceived by him will follow him. When the Messiah comes, he fights and defeats the Dajjal. In Christianity, he appears as Antichrist. Christian sources that include accounts on the Antichrist are four books of the New Testament, the first two letters of John, the book of Revelation and the Second Epistle of Paul to the Thessalonians. Although sometimes in these accounts he is mentioned clearly, some accounts use symbolic language. On the other hand, regarding the Islamic faith, the Holy Quran is not explicit about AL-Dajjal, the information about him is mainly found in the Hadith literature. Alike the end of time, the day that AL-Dajjal will come is also unknown. However, it is said that the time he comes will be a period of time characterized with disasters and increasing chaos. The arrival of AL-Dajjal is considered as one of the ten major signs of doom.

**Keywords:** al-Dajjal, messiah, antichrist, Islam, Christianity, the end of time, the last day

## REFERENCES

1. Akman, M. (2021). The Nature of the Signs of Doomsday from the Perspective of Kalam. *Journal of Islamic Research, 32 (1),* pp. 190-214. (in Turkish)
2. Apak, M. (2022). *Dajjal in Modern Islamic Literature.* Bursa: T.R. Bursa Uludağ University Social Sciences Institute, 116 p. (in Turkish)
3. Biyik, M. (2007). An Evaluation on the Concepts of Dajjal and Gog and Magog in Christian Theology. *Hitit University Faculty of Theology Journal, 6 (11),* pp. 53-79. (in Turkish)
4. Bodor, O. (2017). Characteristics of the Antichrist According to Hadiths. Kyrgyzstan: *Academic View Journal,* pp. 90-102. (in Turkish)
5. Camalov, M., Əzizova, E. and b. (2020). *Dictionary of Explanatory Religious Terms.* Baku: Azerbaijan Institute of Theology, 320 p. (in Azerbaijan)
6. Chelebi, I. (2019). Dajjal. Ankara: Dia, volume: IX, pp. 69-72. (in Turkish)
7. Deliser, B. *Views on Jesus - Messiah and Mahdism in the Language of the True Religion, the Quran.* Sivas: Cumhuriyet University Faculty of Theology, pp. 304-334. (in Turkish)
8. Demirci, K. (2019). Dajjal. Ankara: Dia, pp.67-69. (in Turkish)
9. Lerner, R. E. (2024). *Antichrist.* Encyclopedia Britannica. https://www.britannica.com/topic/Antichrist (Application Time: 22.03.2024) (in English)

**10.** Genchturk, S. (2014). *End Times and Doomsday in Divine Religions*. Isparta: T.R. Süleyman Demirel University, 95 p. (in Turkish)

**11.** Jambrek, S. (2015). The Teaching of Christ and the Antichrist in the Thought of Matthias Flacius Illyricus. Kairos: *Evangelical Journal of Theology, 9(2),* pp. 221-240. (in English)

**12.** *The Holy Book (Torah, Psalms, Bible),* https://www.jw.org/az/kitabxana/m%C3%BCq%C9%99dd%C9%99s-kitab/nwt/m%C3%BCnd% C9%99ricat/ (in Azerbaijan)

**13.** Pink, A W. (2013). *The Antichrist.* Christian Classics Ethereal Library, 148 p. (in English)

**14.** Rose, D. R. (2013). *Eschatology.* Asbury Theological Seminary 90th Anniversary Publications, pp. 233-259. (in English)

**15.** Veli, H. (2003). Signs of the apocalypse. *Religious Studies, 6(16),* pp. 183-198. (in Turkish)